


# ŞƏRQ qapısı

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*

*Qəzet 1921-ci ildən çıxır*

**Təsisçi:** *Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti*

Sayı: 157 (24.294)

*30 avqust 2023-cü il, çərşənbə*

*Gündəlik ictimai-siyasi qəzet*

Qiyməti 30 qəpik


## Çərçiboğan kənd sakinləri ilə görüş olub





Avqustun 29-da Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Şərur rayonunun Çərçiboğan kəndində olub, sakinlərlə görüşüb, onların müraciətlərini dinləyib.

Fuad Nəcəfli Şərur rayonunda bir neçə dəfə sakinlərlə görüşdüyünü bildirib, həmin görüşlərdə qaldırılan məsələlər və onların həlli istiqamətində görüləcək işlər barədə Çərçiboğan kənd sakinlərini məlumatlandırıb.

Sonra sakinlərin müraciətləri dinlənilib. Görüşdə 41 kənd sakininin şikayəti dinlənilib, bütün müraciətlər protokollaşdırılıb.

**"Şərq qapısı"**

## Türkiyə Cümhuriyyətinin Zəfər Tarixi türk xalqlarının vətənpərvərlik və qəhrəmanlıq dastanıdır



*Hər millətin tarixində olduqca önəmli günlər vardır. Avqustun 30-u Türkiyə tarixinin önəmli günlərindən sayılan – Türkiyə Respublikasının Zəfər bayramı və Türkiyə Silahlı Qüvvələri Günüdür. Bu şanlı gün özündə böyük bir tarix daşıyır.*

1920-ci ildə Birinci Dünya müharibəsində ağır məğlubiyyətə düçar olan Osmanlı Türkiyəsini bir çox qərb dövlətləri imzalanmış bir müqavilə ilə tamamilə parçalamaq istəyirdi. Bu qərara qarşı böyük iradə, qəhrəmanlıq göstərən, güc toplayıb bütün bunların qarşısını alan türk xalqının öndəri Mustafa Kamal Atatürk oldu. Bu böyük rəhbər öz silahdaşları ilə birgə düşmənlərə qarşı savaşa qalxdı, müharibə apardı, nəticədə, çoxlu şəhidlər verildi, ancaq türk xalqı böyük Zəfər çaldı. Beləliklə, Türkiyə əleyhdarları olan dövlətlər 1922-ci ildə qəbul etdikləri qərarlardan imtina etdilər və böyük Mustafa Kamal Atatürkün başçılığı ilə Türkiyə Cümhuriyyəti və Türkiyənin Silahlı Qüvvələri yarandı. Böyük Zəfərdən iki il sonra Qazi Mustafa Kamal Atatürk 1924-cü il avqustun 30-da Dumlupınarda Cümhuriyyət tarixi baxımından çox mühüm bir çıxış edərək şanlı Zəfəri belə qiymətləndirmişdi: *"Şübhə olmamalıdır ki, yeni türk dövlətinin, gənc Türkiyə Cümhuriyyətinin təməli burada möhkəmləndirildi. Onun əbədi həyatı burada taclandırıldı. Burada tökülən türk qanları, bu səmada uçan şəhid ruhları dövlət və cümhuriyyətimizin əbədi qoruyucularıdır. Buradakı "Şəhid əsgər" abidəsi o ruhları, onların qazi dostlarını, fədakar və qəhrəman türk millətini təmsil edəcək. Bu abidə türk vətəninə tamah salanlara, türklərin 30 avqustda atəşə, süngüyə, hücuma qüdrət və iradəsindəki şiddəti xatırladacaq".* İlk dəfə 1924-cü ildə Afyonda Ali Baş Komandanın Zəfəri kimi qeyd olunan 30 avqust, 1926-cı ildən Türkiyədə rəsmi olaraq "Zəfər Günü" kimi qeyd edilir. Ümummilli Lider Heydər Əliyev bu əlamətdar tarixi günü belə dəyərləndirmişdir: ***"Zəfər bayramı türk xalqının… tarixində çox əlamətdar və tarixi gündür. Birinci Dünya müharibəsindən sonra…Türkiyəni hər tərəfdən dağıtmağa, parçalamağa çalışdılar. Ancaq türk xalqı bunların hamısına sinə gərdi, öz qəhrəmanlığını göstərdi və türk əsgəri nəyə qadir olduğunu bütün dünyaya nümayiş etdirdi".***

İki dövlət arasındakı sarsılmaz dostluğun, qardaşlığın ifadəsi kimi köklərimizin, dilimizin, dinimizin, mədəniyyətimizin, adət-ənənələrimizin bir olduğu, bir sözlə, keçmiş, bu gün və gələcək taleyimizin bir-birinə sıx tellərlə bağlılığı tarixin sınaqlarından keçərək təsdiqini tapmış həqiqətdir. Türkiyənin böyük öndəri Mustafa Kamal Atatürkün *"Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir"* və Ümummilli Lider Heydər Əliyevin ***"Türkiyə və Azərbaycan bir millət, iki dövlətdir"*** fikirləri həm Türkiyədə, həm də Azərbaycanda iki ölkə arasındakı münasibətlərin tarixini, bu gününü və perspektivlərini müəyyən edən, Azərbaycan-Türkiyə arasındakı dostluq, qardaşlıq bağlarını əbədi və daimi edən əvəzsiz formuldur. Bu mənada, Ulu Öndərimiz Heydər Əliyev Azərbaycan-Türkiyə əlaqələrinin möhkəmlənməsi, inkişafı və qorunub saxlanmasının əsas memarı olmuşdur. Dahi şəxsiyyətin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri vəzifəsində çalışdığı dövrdə – 1992-ci il martın 24-də Türkiyəyə ilk rəsmi səfəri zamanı "Azərbaycana bağlı Naxçıvan Muxtar Respublikası və Türkiyə Respublikası arasında əməkdaşlıq protokolu" imzalanmış, Naxçıvanla Türkiyə Cümhuriyyəti arasında gediş-gəlişi təmin etmək məqsədilə Sədərək-Dilucu körpüsünün tikintisinə başlanılmışdır. Həmin il mayın 28-də Sədərək-Dilucu körpüsü istifadəyə verilmişdir. Dahi şəxsiyyətin ölkəmizə rəhbərliyi dövründə isə qardaşlıq münasibətləri daha da genişləndirilmiş, Azərbaycan-Türkiyə əlaqələri bütün istiqamətlər üzrə inkişaf etdirilmişdir. Təsadüfi deyil ki, bu gün qardaş Türkiyənin bir çox şəhərlərində Ulu Öndərimizin əziz xatirəsinə ehtiram, dəyər, hörmət nümunəsi olaraq parklar, küçələr salınır, bir çox məktəb və liseylər açılır, Türk dünyasının bu böyük oğlunun yüzillik yubileyi qardaş ölkədə də möhtəşəm silsilə tədbirlərlə qeyd olunur. Eynilə də ölkəmizdə Mustafa Kamal Atatürkün adına parkların salınması, müxtəlif şəhərlərdə heykəllərinin ucaldılması bu böyük öndərə olan sevginin, məhəbbətin rəmzidir. Bu gün ölkə başçısı, Ümummilli Liderimizin layiqli davamçısı Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan-Türkiyə birliyi daim yüksələn xətlə inkişaf edir.

Türkiyəyə olan münasibətini təkcə sözdə deyil, əməlləri ilə də təsdiq edən ölkə başçısı cənab İlham Əliyevin 2014-cü ildə Avropa İttifaqının "Şərq Tərəfdaşlığı" Proqramının sammitindəki çıxışı zamanı ***"Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam"*** deməsi, 2016-cı il iyulun 15-də legitim hakimiyyəti hərbi yolla ələ keçirmək cəhdi zamanı Azərbaycan dövlətinin və xalqının ilk dəqiqələrdən haqqın-ədalətin, beynəlxalq hüququn müdafiəçisi kimi qardaş ölkəyə dəsək göstərməsi, Türkiyənin Ermənistan-Azərbaycan münaqişəsində Azərbaycanın haqq işinə daim dəstəyi, xüsusilə də 2020-ci il sentyabrın 27-dən bəri tarixi, əzəli torpağımız Qarabağ uğrunda başlanan Vətən müharibəsində Türkiyənin ölkəmizə birmənalı dəstəyi, 2020-ci il dekabrın 10-da Bakının Azadlıq meydanında Vətən müharibəsində Qələbəyə həsr olunmuş Zəfər paradında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın, o cümlədən rəsmi şəxslərinin iştirakı və Türkiyə hərbçilərinin nümunəvi keçidi iki ölkə arasındakı birlik və həmrəyliyin təntənələridir. Prezident cənab İlham Əliyev 2020-ci il oktyabrın 7-də CNN-Türk televiziyasına müsahibəsində demişdir: ***"Azərbaycanı Türkiyə qədər dəstəkləyən ikinci ölkə yoxdur. Dünyada Türkiyəni də Azərbaycan qədər dəstəkləyən ikinci ölkə yoxdur. Bu bizim böyük sərvətimizdir".*** Sarsılmaz müttəfiqlik münasibətləri 2021-ci il iyun ayının 15-də Şuşada Azərbaycan və Türkiyə prezidentləri tərəfindən imzalanan Şuşa Bəyannaməsi ilə daha da yüksəldi. Hər iki ölkə başçısının 1921-ci il 13 oktyabr tarixli Qars müqaviləsinə sadiq olduqlarını nümayiş etdirərək imzaladıqları Bəyannamə ölkələrimiz arasındakı münasibətlərin bütün müstəvilərdə, o cümlədən siyasi, iqtisadi və humanitar sahələrdə davamlı inkişafı təmin edən sənəddir. Bəyannamədə müdafiə, hərbi sənaye sahələrində əməkdaşlıq məsələləri də əksini tapıb. Həmçinin Azərbaycanın qərb rayonları ilə Naxçıvan Muxtar Respublikası arasında dəhlizin açılması və bunun davamı kimi Naxçıvan-Qars dəmir yolunun tikintisi nəqliyyat-kommunikasiyalarının intensivləşməsinə töhfə kimi dəyərləndirilib.

Azərbaycan-Türkiyə əlaqələri müasir dövrümüzdə bütün sahələrdə – siyasi, iqtisadi, mədəni, kənd təsərrüfatı, təhsil, nəqliyyat, enerji, ticarət və sair uğurla inkişaf etdirilir. Müdafiə sahəsində olan işbirliyi isə sülh və təhlükəsizliyin əsas qarantı rolunu oynayır. Prezident cənab İlham Əliyevin qeyd etdiyi kimi: ***"Türkiyə-Azərbaycan qardaşlığı, birliyi xalqlarımız üçün əsas yol istiqamətidir, bölgə üçün, dünya üçün də çox önəmli amildir, təhlükəsizlik, sabitlik amilidir. Nə qədər Türkiyə və Azərbaycan bir yerdə inamla addımlasa, bölgəmizdə sülh və barış o qədər də möhkəm olacaqdır".*** Cənub Qaz Dəhlizinin əsas hissəsi olan TANAP layihəsi, nəqliyyat sahəsində birlikdə həyata keçirilən Bakı-Tbilisi-Qars dəmir yolu hər iki ölkənin iqtisadi gücünün göstəricisidir. Bu gün Azərbaycan-Türkiyə beynəlxalq platformalarda da eyni mövqedən çıxış edir. Niyyəti, amalı Türkiyəni və Azərbaycanı daha da gücləndirmək olan hər iki dövlətin atdığı bütün addımlar dünya üçün nümunə rolunu oynayır.

Azərbaycan-Türkiyə arasındakı hərbi əməkdaşlıq əlaqələri isə ölkələrimizin şanlı birlik salnaməsinə parlaq səhifələr yazır. Hər iki ölkə arasında imzalanan hərbi əməkdaşlıq haqqında sazişə əsasən Bakıda, Naxçıvanda və digər bölgələrimizdə birgə genişmiqyaslı hərbi təlimlərin keçirilməsi möhkəm və sarsılmaz birliyimizin növbəti nümunəsidir. Xatırladaq ki, qardaş ölkələrin yenilməz ordularının iştirakı ilə Bakı şəhərində keçirilmiş möhtəşəm hərbi parad, Naxçıvan şəhərində keçirilən iki ölkənin silahlı qüvvələrinin "Sarsılmaz qardaşlıq" birgə döyüş atışlı taktiki təlimləri "iki dövlət - bir ordu" modelinin əməli nümunəsi olmaqla hərb tariximizə uğurları ilə yazılıb. Ölkə başçısı demişdir: ***"Bu gün Türkiyə Ordusu NATO-da ikinci ordudur. Heç kim türk ordusunun qabağında dura bilməz. Bunu hər kəs gördü, hər kəs anladı. Biz də Türkiyə Ordusunun daha kiçik modelini qururuq və inşallah bərabər quracağıq. Bizim də qarşımızda bölgədə heç kim dura bilməz".*** Keçən müddətdə Ordularımızın həmrəyliyi, istərsə də müdafiə sənayesi sahəsində atılan addımlar bu gün dünyanın ilk ən güclü 50 ordusu sırasında özünə yer alan milli ordumuzun gücünə güc qatır. Dünyada sülhün, təhlükəsizliyin, inkişafın, əməkdaşlığın əsasını təşkil edən bu birlik və bərabərlik dostlarımız üçün qürur mənbəyi, düşmənlərə isə göz dağıdır.

Böyük türk lideri Mustafa Kamal Atatürkün "Türk qapısı" adlandırdığı Naxçıvan isə sarsılmaz qardaşlıq və dostluq əlaqələrində müstəsna əhəmiyyət kəsb edir. Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə Türkiyənin yaxın bölgələri arasındakı ordu quruculuğu, iqtisadi-ticarət, nəqliyyat, təhsil,

*Ardı 2-ci səhifədə*

səhiyyə, mədəniyyət və digər sahələrdə əlaqələrin inkişafı məmnunluq doğurur. Xüsusilə ordu quruculuğu sahəsindəki bu əməkdaşlıq ilbəil genişləndirilir. Ənənə halını almış birgə hərbi təlimlər uğurlu əməkdaşlığın nəticəsidir. Onu da qeyd edək ki, 2020-ci il fevralın 25-də Bakıda hər iki ölkə liderinin rəhbərliyi ilə keçirilən Azərbaycan-Türkiyə Yüksək Səviyyəli Strateji Əməkdaşlıq Şurasının VIII iclasında digər məsələlərlə yanaşı, Türkiyənin Qars şəhəri ilə Naxçıvan arasında dəmir yol nəqliyyat xəttinin və İqdır-Naxçıvan qaz kəmərinin çəkilməsi barədə də sənədlər imzalanmışdır ki, bu da Naxçıvanın regionda geosiyasi əhəmiyyətini daha da artırmaq baxımından mühüm əhəmiyyət kəsb edir.

2023-cü il iki ölkə arasında qarşılıqlı əməkdaşlıq cəhətdən xüsusilə uğurlu sayıla bilər. Bu il fevralın 6-da Türkiyədə baş vermiş güclü zəlzələ xalqımızı dərindən sarsıtdı, bu çətin zamanlarda ürəyimiz qardaş Türkiyə üçün döyündü, xalqımız könüllü olaraq doğma qardaşlarına dəstək olmaq üçün əlindən gələn köməyi göstərdi. Prezident cənab İlham Əliyev fevralın 8-də Türkiyə Respublikasının ölkəmizdəki səfirliyinə gedərək Türkiyədə baş vermiş zəlzələ nəticəsində çox sayda insanın həlak olması ilə əlaqədar başsağlığı verərək dedi: ***“Türkiyə-Azərbaycan artıq bir yumruqdur, bir ürəkdir, bir candır. Biz belə görürük, Türkiyə və Azərbaycan vətəndaşları da belə görürlər. Bu ağır günlərdə Türkiyənin yanında olmaq bizim üçün böyük şərəfdir.***” Dövlətimizin başçısı fevralın 25-də İstanbulda Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla da görüşdü, Türkiyə Prezidenti Türkiyəyə səfər etdiyinə, Azərbaycanın ilk gündən nümayiş etdirdiyi dəstək və həmrəyliyə görə dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi. Ölkə başçısı martın 16-da Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə Görüşündə çıxışı zamanı dedi: ***“Türkiyə son 20 ildə Cümhurbaşqanı Rəcəb Tayyib Ərdoğanın liderliyi ilə böyük və şərəfli yol keçmiş, dünyada söz sahibi olmuş, güc mərkəzinə çevrilmişdir. Bu gün dünyada Türkiyə ilə hesablaşırlar və ona hörmət edirlər. Türkiyənin hərbi gücünü, müdafiə sənayesi sahəsində böyük uğurlarını indi dünyada hər kəs görür. Bu illər ərzində Türkiyədə davamlı sabitliyin təmin olunması, ölkənin inkişafı bütün Türk dünyası üçün önəmli şərtdir”.*** Aprelin 29-da Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Türkiyə Respublikasına işgüzar səfəri iki ölkə arasında birliyin, qardaşlığın növbəti təzahürü oldu. Azərbaycan Müdafiə Nazirliyi ilə Türkiyənin “Baykar” şirkəti arasında Azərbaycan və Türkiyənin birgə pilotsuz uçuş aparatları (PUA) istehsal edəcəklərinə dair niyyət protokolu imzalanması, həmçinin festivalda dövlətimizin başçısının Türkiyənin müdafiə sənayesində qazandığı uğurlara toxunaraq Türk Ordusunun bu gün dünya çapında ən öndə olan orduların sırasında olduğunu bildirməsi, Azərbaycanda “Bayraktar” mərkəzinin yaradılacağını elan etməsi, ölkə başçısının “Atam demişkən, ***“Bir millət, iki dövlət”, əlavə də etmək istəyirəm, “Bir yumruq!”*** bəyanatı Türkiyə-Azərbaycan qardaşlığının, birliyinin əbədiliyini bir daha təsdiqlədi.

Mayın 3-də ADA Universitetinin təşkilatçılığı ilə Şuşada Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş “Böyük Avrasiya geosiyasətinin formalaşması: keçmişdən bu günə və gələcəyə” mövzusunda dördüncü beynəlxalq konfransda ABŞ-ın Ceymstaun Fondunun baş elmi işçisi Vladimir Sokorun – “Bir çoxlarımız bu müttəfiqliyin Türkiyədə seçkilərin nəticəsindən asılı olmayaraq, davam etməsinə və daimi xarakter almasına əmin olmaq istəyirik...” sualına ölkə başçısı cavab verdi ki, gələcəkdə hər iki ölkə nəinki təkcə bu müttəfiqliyin formatını qoruyub saxlayacaq, hətta onu gücləndirəcəkdir. Çünki yeni geosiyasi reallıqda bu, artıq regional sabitliyin və təhlükəsizliyin mühüm amilinə çevrilib... İyunun 3-də Prezident cənab İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın Ankarada Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın səlahiyyətlərinin icrasına başlaması mərasimində iştirakı “Türkiyə yüzilliyi”nin inşasında Azərbaycanın qardaş ölkənin yanında olacağına, əlaqələrimizi daha da möhkəmləndirmək üçün birlikdə çiyin-çiyinə çalışacaqlarını göstərir. İyunun 12-də Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanın prezident seçiləndən sonra xanımı Əminə Ərdoğan ilə ölkəmizə dövlət səfəri dostluğun, qardaşlığın daha bir nümunəsi oldu. İyunun 13-də Prezident cənab İlham Əliyev və Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan mətbuata bəyanatlarla çıxışda bir çox sahələrdə, eləcə də müdafiə və müdafiə sənayesi sahəsində görülən tədbirlərdən, bu sahələrdə gələcək planlardan danışdı, Azərbaycan Ordusunun bundan sonra Türkiyə modeli əsasında inkişaf edəcəyi, eyni zamanda Zəngəzur dəhlizinin açılmasının bütün ölkələr üçün yeni imkanlar açacağı və bölgədə işbirliyi məsələlərinə də müsbət təsir göstərəcəyi qeyd olundu, Şuşa Bəyannaməsinin müddəalarının bundan sonra da uğurla həyata keçiriləcəyi vurğulandı.

İyulun 21-də “4-cü Sənaye İnqilabı dövründə Yeni Media” mövzusunda Şuşa Qlobal Media Forumunun açılış mərasimində Prezident cənab İlham Əliyev bəyan etdi ki: ***“... Növbəti beş il ərzində biz sıx tərəfdaşlığımızı davam etdirəcəyik, dünya dəyişir, regionda vəziyyət dəyişir. Biz Cənubi Qafqazda vəziyyəti sabitləşdirməliyik, dayanıqlı sülhə nail olmalıyıq, gələcək üçün təhlükəsizlik təmin edilməlidir. Həm qlobal məsələlərdə və xüsusilə bizim regionda Türkiyənin rolu çox önəmli və vacibdir, o, sabitləşdirici rol oynayır. Türkiyənin siyasəti regional təhlükəsizliyi və regional inkişafı təmin etməkdir və o rol həm Azərbaycanda, həm onun hüdudlarından kənarda çox yüksək qiymətləndirilir...”***

*Bu gün Türkiyə xalqı haqlı olaraq Vətənlərinin düşmən tapdağından azad edilməsini, türk millətinin müstəqilliyini müjdələyən 30 avqust Qələbəsini böyük qürur və ruh yüksəkliyi ilə qeyd edir. Bu tarixi Zəfər Türk xalqının dövlətə, bayrağa bağlılığını, öz gücünə inamını, milli birlik və həmrəyliyini göstərir. Qardaş Türkiyənin Zəfər bayramını səmimi qəlbdən təbrik edirik, Türk torpağını qanı və canı ilə Vətən edən müqəddəs şəhidlərimizi və qazilərimizi rəhmət və hörmətlə anırıq. Zəfəriniz mübarək! Güclü və məğrur Türk xalqına yalnız Zəfər, qalibiyyət yaraşır!..*

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

*2023-cü il “Heydər Əliyev İli”dir*

# Naxçıvanlıların gerçəkləşən arzusu – “Ümid” körpüsü

*Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əlaqələrin genişlənməsi üçün atılan ən mühüm addımlardan birindən – Araz çayı üzərində tikilmiş körpüdən bəhs etmək istəyirik. Onun tikilməsinin təşəbbüskarı isə görkəmli dövlət xadimi Heydər Əliyev olmuşdur. Bir qədər geriyə qayıdaq. Körpünün tikintisi ilə bağlı iki ölkə arasında razılaşma əldə olunmuş, bu məqsədlə 1991-ci il 30 dekabr tarixli Sərəncam imzalanmışdır. Sərəncamda göstərilir: “Azərbaycan Dövlət Baş Layihə İnstitutunun Naxçıvan filialı tərəfindən layihə-smeta sənədləri hazırlanmış, Nazirlər Kabineti yanında Əsaslı Tikinti İdarəsi tərəfindən təqdim edilmiş Türkiyə sərhədində Araz çayı üzərində tikiləcək körpünün ümumi smeta dəyəri 549 min manat, o cümlədən tikinti-quraşdırma işləri 390 min manat dəyərində təsdiq edilsin”.*

...Körpünün açılışının 28 may tarixinə təyin edilməsi rəmzi məna daşıyırdı. Açılışın ilk dəfə Şərqdə Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması gününə salınması heç də təsadüfi deyildi. Bu hadisə iki dövlət, bir millət olan böyük bir Turan birliyinin ilk təməl daşlarından idi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi tərəfindən 28 may 1992-ci il tarixdə Türkiyə Cümhuriyyətinin baş naziri Süleyman Dəmirəlin və Türkiyədən gələcək qonaqların Naxçıvana ziyarətinin proqramı hazırlanmış, proqramda qonaqların Azadlıq meydanında Naxçıvan əhalisi ilə görüşünə 1 saat vaxt ayrılması və Naxçıvan Muxtar Respublikası Ali Məclisində danışıqlar xüsusi yer almışdı.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyevin 4 aprel 1992-ci il tarixli Türkiyə Cümhuriyyətinə rəsmi səfəri və Azərbaycanla bağlı Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında 24 mart 1992-ci il tarixli Ankara ilə Əməkdaşlıq haqqında Qərarı görkəmli dövlət xadimi Heydər Əliyev imzaladı. Qərarda qeyd olunur ki, Azərbaycan Respublikasının, onun tərkib hissəsi kimi Naxçıvan Muxtar Respublikasının ağır iqtisadi böhran vəziyyətində olduğu bir dövrdə Türkiyə Cümhuriyyəti hökumətinin Naxçıvan Muxtar Respublikasına böyük maliyyə, maddi-texniki yardım göstərməsi Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına, böhrandan çıxmasına, əhalinin rifah halının yaxşılaşdırılmasına geniş imkan yaradacaqdır.

1992-ci il may ayının 28-də körpünün rəsmi açılışına Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl başda olmaqla Türkiyədən Naxçıvana böyük dövlət nümayəndə heyəti gəlmiş, Türkiyə Cümhuriyyətinin, Azərbaycan Respublikası rəhbərliyinin, Araz çayının o tayında, bu tayında toplanmış Naxçıvanın və Türkiyənin əhalisinin iştirakı ilə körpünün rəsmi açılışı olmuşdur. Körpünün salınmasında əsas məqsəd Azərbaycan ilə Türkiyə arasında sərhəd-keçidini istifadəyə verməklə Araz çayı üzərində Sədərək-Dilucu istiqamətində avtomobil nəqliyyatının hərəkəti üçün şərait yaratmaq idi.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti Sədərək-Dilucu körpüsünün yaranmasını böyük əhəmiyyətə malik olan bir hadisə kimi qiymətləndirir və qeyd edir ki, bu körpü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası arasında iqtisadi, mədəni, insani əlaqələrinin genişlənməsinə və inkişaf etməsinə, Araz çayının hər iki tayında olan qardaş xalqların bir-birinə yaxınlaşmasına xidmət edəcəkdir.

Beləliklə, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Rəyasət Heyəti qərara alır: *“İstifadəyə verilmiş Sədərək-Dilucu körpüsü Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında rəsmi sərhəd-keçid qapısı elan edilsin”.*

Az sonra Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında Sədərək-Dilucu sərhəd-keçid qapısının işinin təşkili haqqında qərar verildi. Qərarda göstərilir ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Rəyasət Heyətinin 1992-ci il 9 iyul tarixli Qərarı ilə Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında Sədərək-Dilucu körpüsü sərhəd-keçid qapısı rəsmi elan edilsin.

1992-ci il iyul ayının 13-də Naxçıvan Muxtar Respublikasının səlahiyyətli nümayəndə heyəti ilə Türkiyə Cümhuriyyətinin Qars vilayətinin səlahiyyətli nümayəndə heyəti arasında Sədərək-Dilucu keçid qapısının istifadə olunması haqqında protokol imzalanmışdır. Bununla bağlı Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Naxçıvan əhalisinin körpüdən keçib getməsi ilə əlaqədar 9 maddədən ibarət olan qərarında göstərilir ki, 1992-ci il iyul ayının 24-dən etibarən Sədərək-Dilucu körpüsündən Naxçıvan Muxtar Respublikası əhalisinin, bütün Azərbaycan vətəndaşlarının sərbəst keçməsinə icazə verilsin. Naxçıvan Muxtar Respublikasının sakinləri Sədərək-Dilucu körpüsündən vətəndaşlıq pasportlarına əlavə olunan xüsusi içlik əsasında Türkiyə Cümhuriyyətinə keçə bilərlər.



Ümumiyyətlə, Naxçıvan əhalisinin, həmçinin minik avtomobillərinin, sərnişin daşıyan avtobusların, eləcə də Azərbaycan Respublikası, Müstəqil Dövlətlər Birliyi vətəndaşlarının körpünü keçməsi üçün ayrı-ayrılıqda dövlət rüsumu müəyyənləşdirilmişdir. Bu rüsumlardan gələn gəlirlər Naxçıvan iqtisadiyyatının sabitləşməsi fonduna köçürülsün.

Xalqını düşünən, onun maddi rifahı naminə yollar axtaran Ulu Öndərimizin müdrik siyasətinin nəticəsi kimi 1992-ci ilin mart ayında Ankarada imzalanan protokolun parlaq təzahürü idi ki, Türkiyə Cümhuriyyəti ilə Naxçıvan Muxtar Respublikası arasında ticarət, iqtisadi və digər əlaqələr genişlənir, müştərək müəssisələr qeydə alınırdı.

Araz çayı üzərində Sədərək-Dilucu körpüsünün açılmasından sonra Naxçıvan və Türkiyə Cümhuriyyəti arasında iqtisadi əlaqələrin genişləndirilməsi üçün 1993-cü ilin mart ayının 12-də Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyətinin İqdır vilayəti arasında sərhədyanı ticarətin təşkili ilə bağlı Naxçıvan Muxtar Respublikasının Baş naziri Şəmsəddin Xanbabayev və İqdır vilayətinin valisi Ərdoğan İzki başda olmaqla protokol imzalandı. Bundan sonra Naxçıvan Muxtar Respublikası Nazirlər Kabineti 1993-cü il 7 may tarixli Qərar imzalayır. Qərarda ticarətin təşkili 7 maddədə özünü əks etdirirdi. Həmçinin Türkiyə Cümhuriyyətindən Naxçıvan Muxtar Respublikasına gətiriləcək və yaxud buradan aparılacaq malların siyahısı qərara əlavə edilmişdi. Bu, dostun dosta, qardaşın qardaşa uzatdığı yardım əli idi.

Naxçıvan Muxtar Respublikasında Türkiyə Cümhuriyyətində istehsal olunmuş malların sərgisinin təşkil edilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 1994-cü il 6 yanvar tarixli Qərarında göstərilir ki, Türkiyə ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında müxtəlif sahələrdə əməkdaşlıq haqqında 1992-ci ilin mart ayında Ankara şəhərində Türkiyə Cümhuriyyətinin Baş naziri Süleyman Dəmirəl və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Heydər Əliyev tərəfindən imzalanmış protokol bu əlaqələrin daha da möhkəmlənməsinə təkan vermişdir. Həmin protokolun icrası ilə əlaqədar olaraq Türkiyə 1994-cü ilin iyun ayında Naxçıvan şəhərində bu ölkədə istehsal olunmuş malların bir həftəlik sərgisinin təşkil edilməsi təklifini qəbul etmişdir.

Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası arasında Sədərək-Dilucu sərhəd-keçid qapısının işinin təkmilləşdirilməsi haqqında Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 1992-ci il 20 iyul tarixli Qərarına əlavədə Türkiyə Cümhuriyyətində oxuyan tələbələr haqqında 8-ci maddədə yazılır: *“Naxçıvan Muxtar Respublikasından gedib Türkiyə Cümhuriyyətinin müxtəlif təhsil ocaqlarında oxuyan tələbələr dövlət rüsumu ödəmirlər, bunun üçün tələbə biletləri təqdim etməlidirlər”.*

Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin Türkiyə Cümhuriyyəti ilə Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası arasında bağlanmış 1992-ci il 20 iyul tarixli Qərarına əlavə olaraq Naxçıvan Sərnişindaşıma Avtonəqliyyat müəssisəsi ilə “Türkiyə Kooperativi”, “İqdırlı Turizm Avtobus İşlətməsi” şirkəti ilə bağlanmış qarşılıqlı müqaviləyə əsasən Naxçıvan-İqdır və İqdır-Naxçıvan marşrutu fəaliyyət göstərməyə başladı.

Ümummilli Liderimizin 1996-cı ildə Prezident seçildikdən sonra ilk dəfə Naxçıvana gəlişi naxçıvanlılar üçün toy-bayrama çevrildi. 2002-ci ilin avqustuna təsadüf edən növbəti səfəri də, təbii ki, Naxçıvanda əhali tərəfindən böyük sevinclə qarşılanmışdı. Bu səfər zamanı müxtəlif obyektlərin inşası ilə bağlı bir çox mühüm qərarların verilməsi blokada şəraitində olan muxtar respublikanın iqtisadi inkişafına təkan verəcəkdi. Bütün bunlar xalqın böyük oğlu, dahi siyasətçi Heydər Əliyevin bütün şüurlu həyatı, siyasi fəaliyyəti dövründə Naxçıvana xüsusi övlad məhəbbəti ilə, diqqət və qayğı ilə yanaşdığını göstərir.

Ümumiyyətlə, Ulu Öndərimiz, müstəqil Azərbaycan Respublikasının memarı Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə ötən əsrin 90-cı illərindən bir soydan olan bir millət, iki dövlət kimi Azərbaycan Respublikasının Naxçıvan Muxtar Respublikası ilə Türkiyə Cümhuriyyəti arasında əlaqə rolunu oynayan Sədərək-Dilucu – “Ümid” körpüsünün tikilib istifadəyə verilməsi blokada şəraitində yaşayan naxçıvanlılar üçün qurtuluş körpüsü oldu. Ulu Öndər istər Naxçıvanda işlədiyi zaman, istərsə də Azərbaycana rəhbərlik etdiyi dövrlərdə bu qədim Oğuz yurdunu heç zaman yaddan çıxarmamış, əbədiyyətə qovuşduqdan sonra Onun layiqli davamçısı Prezident cənab İlham Əliyev əsası Ulu Öndər tərəfindən qoyulan Türkiyə-Azərbaycan dostluğunu davam etdirmiş, Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğan 44 günlük İkinci Qarabağ müharibəsində Azərbaycanın yanında olmuş, onun haqq səsini dəstəkləmişdir. Həmçinin Azərbaycan da demokratik seçkilərdə səs çoxluğu ilə yenidən Prezident seçilmiş Ərdoğanın türkçülük ideyalarını, dövlətçilik siyasətini dəstəkləyir. Bu dostluq əbədidir.

**Zülfiyyə İSMAYILOVA**
***Naxçıvan Muxtar Respublikası Dövlət Arxivinin əməkdaşı***

## Ulu Öndər Heydər Əliyevin irsi milli sərvətimizdir

Naxçıvan Şəhər İcra Hakimiyyətində keçirilən tədbiri giriş sözü ilə açan icra hakimiyyəti başçısının müavini Təhminə Mustafayeva Ulu Öndər Heydər Əliyevin hakimiyyətə gəlişi ilə Azərbaycanda intibah və milli şüurun oyanışından bəhs edib.



Qeyd olunub ki, ölkə başçısı cənab İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli Sərəncamına əsasən Ümummilli Liderin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması ölkəmizin müstəqillik tarixinin öyrənilməsi və gələcək nəsillərə çatdırılması üçün böyük imkanlar yaradıb.

Naxçıvan Muxtar Respublikası Ağsaqqallar Şurasının sədri Məmməd Məmmədov Ümummilli Lider Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb.

Naxçıvan Şəhər Ağsaqqallar Şurasının sədri Tofiq Seyidov ömrünü xalqımızın tərəqqisinə və firavanlığına həsr etmiş Ulu Öndərin həyat və fəaliyyəti ilə bağlı çıxış edib.

Sonra tədbirdə Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən videoçarx nümayiş etdirilib, şəhər İcra Hakimiyyətinin foyesində Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən fotosərgiyə baxış olub.

✍ **Aidə İBRAHİMOVA**

## "Erasmus+" layihəsi çərçivəsində növbəti təlimlərə start verilib



Naxçıvan Dövlət Universitetinin rektoru Elbrus İsayev və rektor məsləhətçisi Rəcəb Cəfərli Estoniyanın Tallin Texnologiya Universitetində (TalTech) "Erasmus+" layihəsi çərçivəsində keçirilən təlimlərə qatılıblar. 28 avqust-1 sentyabr tarixləri əhatə edən təlim səfərində ENGAGE layihəsində təmsil olunan 11 Azərbaycan universitetinin rektorları, prorektorları, inzibati və akademik heyət üzvləri iştirak edirlər.

Təlimlərin açılışında çıxış edən TalTech-in rektoru Tiit Land rəhbərlik etdiyi universitet haqqında qonaqları məlumatlandırıb və təcrübə mübadiləsinin faydalı olacağına əminliyini ifadə edib.

Səfərin əsas məqsədi Estoniyanın aparıcı ali təhsil müəssisələrindən olan TalTech-in sahibkarlıq təhsili sahəsindəki qabaqcıl təcrübəsinin öyrənilməsindən ibarətdir. Təlimlər çərçivəsində sahibkarlıq təhsili, universitet-sənaye əməkdaşlığı, Estoniyanın startap ekosistemi, rəqəmsallaşma, elektron idarəetmə və digər mövzularda seminarların keçirilməsi, nümayəndə heyətinin TalTech İnnovasiya və Biznes Mərkəzini, universitetin müvafiq laboratoriyalarını və Estoniyanın ən böyük startapını ziyarət etməsi nəzərdə tutulub.

Əlavə olaraq bildirək ki, ENGAGE layihəsi çərçivəsində ilk təlimlər cari ilin 21-25 avqust tarixlərində İsveçin Kral Texnologiya Universitetində keçirilib.

***Naxçıvan Dövlət Universitetinin televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***

## Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndə heyətinin Naxçıvana səfəri davam edir





Xəbər verdiyimiz kimi, Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı nümayəndə heyəti Naxçıvan Muxtar Respublikasında işgüzar səfərdədir. Səfərin ikinci günündə Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyində iclas olub, müzakirələr aparılıb. Sonra Naxçıvan şəhərində fəaliyyət göstərən bir sıra səhiyyə müəssisələri – "Təcili Tibbi Yardım Xidməti", Naxçıvan Muxtar Respublika Xəstəxanası, Naxçıvan Diaqnostika Müalicə Mərkəzi ilə tanışlıq olub. Müəssisələrdə tibbi avadanlıqlara baxış olub, müayinə və müalicənin yüksək səviyyədə həyata keçirilməsi üçün burada quraşdırılan ən müasir tibbi cihazlar və avadanlıqlar haqqında ətraflı məlumat verilib.

Ümumdünya Səhiyyə Təşkilatının Azərbaycandakı nümayəndə heyəti Naxçıvan Dövlət Universitetində tibb fakültəsinin fəaliyyəti ilə yaxından tanış olub. Görüş zamanı qonaqlara ali təhsil müəssisəsinin tibb fakültəsi haqqında ətraflı məlumat verilib. Bildirilib ki, 20 ildən artıq təcrübəsi olan fakültənin fəaliyyətinə daim dövlət dəstəyi göstərilir. Bu gün tibb fakültəsi üçün ayrıca bina və xəstəxananın mövcudluğu peşəkar kadr hazırlığına öz töhfələrini verməkdədir.

Qeyd edilib ki, tibbi kadrların hazırlığı üçün xarici universitetlərlə geniş əlaqələr, təcrübə mübadilələri, fakültənin beynəlxalq layihələrdə iştirakı, müasir laboratoriyaların qurulması tədris imkanlarını daha da artırır. Tibb fakültəsinin məzunları nəinki Naxçıvanda, hətta onun hüdudlarından kənarda təhsillərini davam etdirərək muxtar respublika səhiyyəsinin inkişafında mühüm rol oynayırlar.

Məlumat verilib ki, fakültədə tədrisi ingilis dilində "Tibb" ixtisası da bu ildən fəaliyyətə başlayıb. Bundan əlavə Naxçıvan Dövlət Universiteti nəzdində yaxın zamanlarda müasir standartlara cavab verən Tibbi Tədqiqat Klinikası, Tibb fakültəsi, Stomatologiya fakültəsi, Tibb kolleci və bir sıra sosial infrastrukturu özündə cəmləyən yeni tibb kampusunun qurulması xarici dillərdə tibbi kadrların hazırlanması üçün geniş imkanlar yaradacaq və əsaslı baza rolu oynayacaq.



İngilis dilində "Tibb" ixtisasında təhsil alan tələbələrin ixtisasları üzrə tibbi biliklər əldə etmələri, bu ixtisas üzrə Avropanın müxtəlif universitetləri ilə ikili diplom layihələrini həyata keçirməyə, müxtəlif mübadilə proqramları əsasında müəyyən təhsil dövrlərində xarici ölkələrdə təhsil almalarına geniş imkanlar yaradacaq.

İngilis dilində tibb təhsili sonrakı təhsil səviyyələrində yüksəkixtisaslı kadr kimi formalaşmaqda Avropa universitetlərində rezidentura və ya uzmanlıq təhsili üçün geniş imkanlar yaradacaq.

Qonaqlar fakültədə fəaliyyət göstərən kitabxana, kompüter otağı, histologiya, anatomiya, fizioterapiya, patalogiya, stomatoloji simulyasiya, əczaçılıq simulyasiya kabinələri, kimya, fiziologiya və stomatoloji texniki laboratoriyaları ilə də tanış olublar.

Universitetin nəzdindəki Tibb Kolleci ilə tanışlıq zamanı Naxçıvan Tibb Kollecinin direktoru Sona Məmmədova qonaqlara təhsil ocağının fəaliyyəti barədə danışıb. Heyət kollecin şöbə və kabinələrində qurulmuş müasir aparat və cihazlar haqqında, təhsil ocağının fəaliyyəti barədə məlumatlandırılıb.

ÜST-ün Azərbaycandakı nümayəndəliyinin rəhbəri Hande Harmancı səfərin ikinci günü keçirilən görüş və müzakirələr, Naxçıvan səhiyyəsi barədə təəssüratlarının daha da dərinləşməsi haqqında bildirdi ki, həmin görüş zamanı Ümumdünya Səhiyyə Təşkilatının fəaliyyətindən danışılıb. Hande Harmancı dedi: "Sevindirici haldır ki, Naxçıvan Muxtar Respublikası Səhiyyə Nazirliyi ilə Ümumdünya Səhiyyə Təşkilatının prioritetləri üst-üstə düşür. Nazirliyin gördüyü işlər, eynilə təşkilatın da aparıcı məsələləridir. Bunlara ilkin səhiyyə xidmətləri, ailə sağlamlıq mərkəzlərinin qurulması, ictimai səhiyyə xidmətinin inkişafı, təcili yardım sistemlərinin qurulması aid edilə bilər. Təcili yardım briqadasında təcili yardım maşınlarının olduğu yeri, orada nələr edildiyini gördük, həmçinin xüsusi ekspertlər tərəfindən gələcək planlar barədə məlumatlar verildi. Daha sonra Mərkəzi Respublika Xəstəxanasına gəldik. Xəstəxanada çox insanın olması, buranın işlək bir səhiyyə müəssisəsi olduğunu göstərir. Bölmələri gəzdik və mənə ən çox təsir edən bütün tanış olduğumuz həkimlərin, tibb bacılarının işlərinə necə həvəslə, məsuliyyətlə yanaşdığını görmək oldu. Yuxarı mərtəbədə sinif və auditoriyaların olması da təqdirəlayiqdir. Bu həm də tibb işçilərinin maarifləndirilməsi üçün çox yaxşı addımdır.

Çalışacağıq ki, təşkilatın istiqaməti ilə üst-üstə düşən məsələlərdə dəstək olaq. Bu da, öz növbəsində, Naxçıvanla daha sıx əlaqələrin qurulması deməkdir. Naxçıvana gəlmədən öncə Səhiyyə Nazirliyi ilə keçirilən videokonfrans sırasında əsas məsələlərin olmasının vacibliyi ilə yanaşı, planların da uyğun olması barədə danışıqlar aparmışdıq. Qayıtdıqdan sonra da bunun davam edəcəyi və ekspertlərin daha sıx şəkildə buraya gələcəyini ümid edirəm".

✍ **Gülcamal TAHİROVA**

## Naxçıvan Dövlət Universitetində IBM Proqramlaşdırma Mühəndisliyi İnstitutu ixtisaslı kadrların hazırlanmasında müstəsna rol oynayacaq

*Müasir həyatımızda əmək bazarında baş verən dəyişikliklər bizə XVIII-XIX əsrin ərəfəsindəki vəziyyəti xatırladır. O vaxt insan əl əməyindən maşına keçid etmişdi. O vaxtla indiki vəziyyətin əsas fərqi bundadır ki, hazırda sürət amili dəfələrlə yüksəkdir. Buna görə də əgər iki əsr bundan əvvəl bacarıqları nəsildən-nəslə ötürmək olurdusa, indi bu iş sadə yolla baş vermir və mütəxəssis müdaxiləsi olmadan mümkünsüz görünür. "Reskilling" – yenidən təkmilləşmə qarşımızda duran ən aktual proseslərdən biridir. Getdikcə daha çox şirkətlər və işəgötürənlər əməkdaşlarının yenidən təkmilləşməsinə rəhbərlik etdikləri qurumun inkişafı baxımından vacib amil kimi yanaşmağa başlayıblar.*





Son illərdə müəssisələrin idarəedilməsinin əsas subyektləri olan idarəetmə kadrlarının hazırlığı sisteminin innovativ inkişaf etdirilməsi dövrün əsas mövzularından birinə çevrilmişdir. Xarici mühitin dinamikasının artması, elmi və texnoloji tərəqqinin davamlı inkişafı, təsərrüfat subyektlərinin daha çox mürəkkəb sosial-iqtisadi sistemlərə çevrilməsi, öz növbəsində, iqtisadiyyatının mürəkkəbliyinə uyğun olaraq müəssisələrdə yeni idarəçilik kadrları tələb edir. Bu baxımdan işçilərin inkişafı sisteminin təkmilləşdirilməsi və kadr hazırlığı səviyyəsinin artırılması müasir qurumların, innovativ imkanların və müasir metodların araşdırılmasının aktuallığı artır. Müəssisənin kadrlarının hazırlığı sisteminin innovativ inkişafının mahiyyəti təşkilatın istehsal və iqtisadi fəaliyyətinin səmərəliliyinin səviyyəsini artırmaq üçün ağlabatan və operativ idarəetmə qərarları qəbul etməyə imkan verən idarəetmə kadrlarının səlahiyyətlərinin səviyyəsini artırmaqdır. Bu proses yenilikçi və müasir idarəetmə kadr hazırlığı vasitələrinin müntəzəm inkişaf etdirilməsi olmadan mövcud bazar şəraitində təsərrüfat subyektinin lazımi səviyyədə mənfəət və rəqabət qabiliyyətini təmin etmək mümkün deyildir.

Buna görə də həm ölkəmizin, həm də firma və təşkilatların qarşısında duran başlıca problemlərdən biri də beynəlxalq əmək bazarının tələblərinə uyğun rəqabətqabiliyyətli idarəçi kadrların hazırlanmasıdır. Qeyd etmək lazımdır ki, hazırda bu sahədə olan əsas problem müasir idarəetmə və menecment elminin tələblərinə cavab verən idarəetmə kadrlarının hazırlanması, onların yenidən hazırlığı və ixtisasının artırılması, o cümlədən müəssisənin işçilərinin təlimi və hazırlıq sistemlərinin yaradılmasıdır. Bunlara uyğun olaraq istər ali təhsil müəssisələrində, istərsə də firmaların daxilində effektiv idarətmə kadr hazırlığının həyata keçirilməsi və onların potensialından səmərəli istifadə müəssisənin səmərəliliyini artırmaq, effektiv iqtisadi göstəricilər əldə etməsi üçün mühüm vasitə hesab olunur. Beləliklə, rəqəmsallaşma əsrində personalın əmək bazarının diqtə etdiyi yeniliklərdən bixəbər olmaması üçün nələr etmək lazımdır?

Ekspertlər hesab edir ki, ən azı ildə bir dəfə peşələrdə baş vermiş dəyişikliklər və əmək bazarının onlara olan tələblərinin auditini həyata keçirmək lazımdır. Artıq indinin özündə bir çox tanınmış şirkətlər büdcələrinin böyük bir qismini əməkdaşlarının təkmilləşməsinə yönəldirlər. Məsələn, IBM işçilərinin tədrisinə ildə 500 milyon dollardan çox pul xərcləyir. Şirkətin baş direktoru Cinni Pomettinin sözlərinə görə, IBM-də "skill planning" (bacarıqların planlaşdırılması) deyilən proqram var və o hər rüb yenilənir. Bu proqram, eyni zamanda bazardakı yeniliklərdən asılı olaraq çevik dəyişikliyə uğraya bilər. Cinninin sözlərinə görə, təkmilləşmə əməkdaşın yaşından heç bir halda asılı ola bilməz və bunu onlar öz şirkətlərində personalın 100 faizinin "reskilling"i ilə sübut ediblər.

IBM (International Business Machines) kompüter avadanlığı və proqram təminatı istehsalı və satışı üzrə ixtisaslaşmış beynəlxalq texnologiya şirkətidir. 1911-ci ildə əsası qoyulan IBM dünyanın ən qədim texnologiya şirkətlərindən biridir və sənayedə innovasiya və liderliyin uzun tarixinə malikdir. 170-dən çox ölkədə mövcudluğu və dünya üzrə 300.000-dən çox işçisi ilə dünyanın ən böyük informasiya texnologiyaları şirkətlərindən biri olan IBM qiymətli qlobal brendlər arasındadır. IBM gəlir baxımından ən yaxşı şirkətlər arasında yer alır və minlərlə patent də daxil olmaqla güclü əqli mülkiyyət portfelinə malikdir. Vurğulanıb ki, şirkət dünyanın 110-dan artıq ölkəsində 334 kurs olmaqla, bir milyon sertifikat təqdim edib.

Dünyadakı universitetlərlə davamlı əlaqələr qurmaq, IBM-in 170 ölkəni əhatə edən Qlobal Ekosistemi ilə uyğunlaşmaq məqsədilə IBM şirkəti ilə birlikdə Naxçıvan Dövlət Universitetində Proqramlaşdırma Mühəndisliyi İnstitutu (Software Engineering Institute) yaradılıb. Proqramlaşdırma Mühəndisliyi İnstitutunun akademik və əməkdaşlıq maraqları ilkin olaraq süni intellekt, bulud texnologiyaları, kiber təhlükəsizlik, məlumatlar bazası, dizayn düşüncəsi, kvant fizikası sahələrinə yönələcək.

Əsas məqsədlərdən biri də IBM tərəfindən universitetin texnologiya həllərinə çıxış imkanlarını artırmaq və bu sahədə yeni kadrlar hazırlamaqdır. Qeyd edək ki, IBM innovasiya yönümlü layihələrin dəstəklənməsində və inkişaf etdirilməsində universitetlə əməkdaşlıq edəcək, müasir innovativ ideyaları paylaşaraq strateji problemlərə uyğunlaşdırılmış daha geniş tədqiqatçıların yetişdirilməsinə dəstək göstərəcək. İlkin olaraq "Tech to Teachers" layihəsi çərçivəsində 20 professor-müəllim heyəti "IBM Skills Network" platformasından qeydiyyatdan keçərək təlimlərə cəlb olunub. Platformada, xüsusilə proqramlaşdırma, kiber təhlükəsizlik, süni intellekt, maşın öyrənməsi, data science və sair sahələrə aid kurslar mövcuddur. Kursları bitirən iştirakçılar IBM loqosu ilə nişanlanmış sertifikat əldə edəcəklər.

Bütün bunlar Naxçıvan Dövlət Universitetində elmtutumlu layihələrin artırılmasına, ixtisaslı kadrların yetişdirilməsinə töhfə verəcək.

Texnoparkın fəaliyyət istiqamətində universitetdə mühəndislik ixtisaslarında dərs deyən müəllimlərin təcrübi peşə vərdişlərinin formalaşmasında mühüm əhəmiyyət daşıyacaq.

**Hüseyn ƏSGƏRLİ**
***Naxçıvan Dövlət Universitetinin İnformasiya Kommunikasiya Texnologiyaları və Elektron Təhsil şöbəsinin müdiri***

*Qərbi Azərbaycan: Tarixi faktların və şahidlərin dili ilə*

## Qərbi azərbaycanlı soydaşlarımız torpaq, yurd nisgilinə birdəfəlik son qoyulacağına əmindirlər

1988-ci ilin sonları.... Bugünkü orta və yaşlı nəslin yaxşı xatırladığı günlər. Qədim oğuz torpağında humanizm göstərərək uzun illər əvvəl yer verdiyimiz, sonradan burada məskunlaşaraq özlərinin qondarma dövlətini quran, bu torpaqlarda at oynadan vandalların "böyük Ermənistan" yaratmaq xülyasını gerçəkləşdirmək üçün orada yaşayan azərbaycanlıları sıxışdıraraq dədə-baba yurdlarından qovmasını qoca dünya görmürdü sanki.

Ən acınacaqlı hallardan biri ölkəmizdə rəhbərlikdə olanların şəxsi ambisiyaları, Moskva qarşısında itaət göstərmələri və buna görə onlar da İrəvanda baş verənləri "görməmələri" idi. Bir neçə ay davam edən bu "görməzliklər" qədim oğuz yurdunun aborigen sakinlərinin axırıncı nəfərinədək ordan çıxarılmasını "təmin etdi". Beləliklə, 250 min azərbaycanlı vəhşicəsinə Qərbi Azərbaycandan qovuldu.

Oradan gələnlərə ilk qucaq açanlardan biri də Naxçıvan oldu. Bu qədim yurd yerinə pənah gətirmiş soydaşlarımızı Naxçıvan böyük mehribanlıqla qarşıladı, qara günün ömrü az olar, – deyib öz qoynunda onlara yer verdi...

...35 il keçir o prosesin başlamasından. Bir qərinədən artıq bu zaman kəsiyində çox sular axıb, çox sular durulub, lakin nədənsə dünya yenə də bunu görmür... 35 il ərzində tarixi həqiqətləri ən uca tribunalardan bəyan edən dövlətimiz bu müddətdə çox şeylərə nail olub. Güclü ordu və iqtisadiyyat formalaşdırıb, mənfur ermənilərin tapdağında olan Qarabağı azad edib. 44 gün ərzində dünya bunu görə bildi. Ancaq yenə də ermənipərəst havadarları haqq işimizə qara ləkə yaxmaq istəyindən əl çəkmirlər.

Bu gün ölkəmizin ictimai-siyasi həyat gündəmində dayanan məsələlərdən biri də Qərbi azərbaycanlıların öz dədə-baba yurdlarına qayıtma məsələsidir. Bununla bağlı olaraq "Şərq qapısı" qəzetinin əməkdaşları muxtar respublikamızda məskunlaşmış Qərbi Azərbaycandan gəlmiş soydaşlarımızla görüşür, onlarla həmsöhbət olurlar.

Kəngərli rayonunun Çalxanqala kəndində yaşayan, buradakı məktəbdə riyaziyyat müəllimi işləyən ***Çərkəz Qalayev*** də onlardan biridir. Çərkəz müəllimin tərcümeyi-halı barədə qısa məlumat verərək bildirim ki, müsahibim 1962-ci ildə Vedi rayonunun Şidli kəndində anadan olub. Naxçıvan Dövlət Universitetini (ovaxtkı Akademik Yusif Məmmədəliyev adına NDPİ) bitirib. Vedi rayonunun Şirazlı kəndində müəllim işləyib. Müsahibimin söhbəti:




– Qərbi Azərbaycandan zorla çıxarılanda 26 yaşım varıydı. Naxçıvana gəlməyi ona görə seçdim ki, bunu həm öz yerlilərim istəyirdilər, həm də Naxçıvanda ali təhsil aldığım müddətdə bu qədim diyarın insanlarını yaxından tanımışdım. Bura üz tutduq, bizi öz əzizləri kimi qəbul etdi naxçıvanlılar. Ancaq doğulub boya-başa çatdığımız torpağın ətri üçün indi də burnumuzun ucu göynəyir. Bu ağrını məhz naxçıvanlıların bizə olan doğma münasibəti sakitləşdirir. Ancaq Vətən Vətən olaraq qalır...

Burada yadıma ölkə Prezidenti cənab İlham Əliyevin Ankarada Türk Dövlətləri Təşkilatının Dövlət Başçılarının Fövqəladə Zirvə görüşündə dedikləri düşür: ***"1991-ci ilə qədər bütün azərbaycanlılar indiki Ermənistan ərazisindən zorla qovulmuşdur. Ermənistan Qarabağda və Şərqi Zəngəzurda olduğu kimi, indiki Ermənistan ərazisində, yəni Qərbi Azərbaycanda da mədəni irsimizi, məscidləri, tarixi abidələrimizi dağıtmışdır. Azərbaycan ictimaiyyəti dəfələrlə UNESCO-ya indiki Ermənistanda Azərbaycan xalqının mədəni irsinin monitorinq edilməsi məqsədilə bu ölkəyə faktaraşdırıcı missiyanın göndərilməsi xahişi ilə müraciət etmişdir və UNESCO-dan müsbət cavab gözləyir.***

***Qərbi Azərbaycanda etnik təmizləməyə məruz qalan həmvətənlərimiz indi Qərbi Azərbaycan İcmasında birləşiblər. Onlar tarixi torpaqlara sülh yolu ilə qayıdışı qarşılarına məqsəd qoyublar. Qərbi Azərbaycan İcmasının hazırladığı Qayıdış Konsepsiyasına əsasən indiki Ermənistan ərazisindən zorla deportasiya olunmuş azərbaycanlıların öz yurdlarına qayıdışı üçün müvafiq verifikasiya və zəmanət mexanizmi olan və hüquqi baxımdan məcburi olan beynəlxalq razılaşma əldə edilməlidir".***

Çərkəz müəllimin ölkəmizdə bu istiqamətdə gedən hadisələrə münasibətini bilmək istəyirəm. Deyir ki, Qərbi Azərbaycan İcmasının fəaliyyətini gücləndirmək, bir sıra taleyüklü məsələləri birlikdə həll etmək, layihələr hazırlamaq məqsədilə icmaya verilən qərargahda ölkə başçısı cənab İlham Əliyevin söhbəti hər birimizi gələcəyə böyük ümidlərlə baxmağa bir daha ruhlandırdı. Bu ümidlər qüdrətli Azərbaycan Ordusunun erməni vandalları üzərində qazandığı Şanlı Qələbədən sonra yaranıb. Biz elə 10 noyabr Bəyanatından sonra inandıq ki, "Dəmir yumruq" bu məsələni də gec-tez həll edəcək, hər bir azərbaycanlı qaçqının ürəyindən torpaq, yurd həsrəti götürüləcək. O günün uzaqda olmadığını deyən həmsöhbətim bildirir ki, bizə burada hərtərəfli şərait yaradılıb. Bu gün Çalxanqala buraya gələnlərdə, kəndi görənlərdə qəsəbə təəssüratı yaradır. Yollarımız ən müasir üslubda yenidən qurulub. 270 şagirdin təhsil aldığı 360 şagird yerlik məktəb binası Naxçıvan şəhərindəki məktəblərin binası ilə eynidir. Xidmət və kənd mərkəzləri, uşaq musiqi məktəbi də eləcə. Hər birimiz torpaq sahəsi ilə təmin olunmuşuq. 37 qaçqına isə yeni evlər tikilib. Rastlaşdığımız hər bir çətinlik yerindəcə həll edilir. 5 övladım var. Hamısını boya-başa çatdırıb, ev-eşik sahibi etmişəm. Elə mənim kimi digər həmyerlilərim də. Onu da deyim ki, Çalxanqalanın məhsuldar torpaqları, iqlim şəraiti burada kənd təsərrüfatının bir sıra sahələrini inkişaf etdirməyə imkan verir.

Burada doğulub boya-başa çatan gənclər barədə soruşuram.

– Onlar Qərbi Azərbaycanı görməsələr də, həm evlərdə, həm məktəbdə onlara yaşanmış həqiqətlər barədə ətraflı məlumat verilir ki, tariximizi yaxşı bilsinlər, dost ilə düşməni tanısınlar, öz gələcək həyat yollarında atacaqları addımları indidən müəyyənləşdirsinlər. Bunun üçün məktəbdə sinifdənxaric və məktəbdənkənar tədbirlərin bir hissəsi tariximizə, onun qaranlıq qalmış və təhrif edilmiş səhifələrinə həsr olunur.

Çərkəz müəllimlə söhbətdə bir qənaəti təsdiq etdim ki, ölkəmizin apardığı siyasəti ürəkdən dəstəkləyir, Azərbaycan Prezidentinin tutduğu yolun xalqımıza daha firavan gələcəyi üçün olduğunu, müstəqilliyimizin və dövlətçiliyimizin əbədiliyinə hesabladığını yaxşı dərk edirlər. Onlar inanırlar ki, Qərbi Azərbaycan məsələsinin həlli xalqımızın birliyindən asılıdır. II Qarabağ müharibəsində gördüyümüz dövlət-xalq birliyini davam etdirməliyik ki, qarşıya qoyduğumuz məqsədə nail olaq. "Dəmir yumruq" yerindədirsə, bu heç də çətin deyil.

**✍ Muxtar MƏMMƏDOV**
***Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti***

*Gəncliyimiz, gələcəyimiz*

## Kəngərli rayon tam orta məktəb məzunlarının nəticələri qürurvericidir

Zaman sübuta yetirib ki, dünyanın ən inkişaf etmiş xalqları elmin və təhsilin etibarlılığına arxalanıb. Bu gün sürətlə inkişaf edən elm və texnologiyalar dünyasında istənilən maddi sərvət bir andaca yox ola, yalnız yiyələndiyimiz bilik və bacarıqlarımız bizi xilas edə bilər. Uzun illərdir, ölkəmizdə insan kapitalına, insan zəkasına, innovativ ideyalara və gənclərimizin uğurlu fəaliyyətinə söykənərək gələcək yönümlü addımlar atılır. Bu prosesin təməli isə məhz orta məktəbdən başlayır. İlkin biliklərin formalaşdığı sözügedən təhsil ocaqları hər fərdi yetişdirərək cəmiyyətin bir üzvünə çevirir. Bu baxımdan muxtar respublikamızda da yaradıcı və bacarıqlı şagirdləri hazırlayıb cəmiyyətə bəxş edən orta təhsil müəssisələrinin uğurları xüsusi qeyd olunmalıdır.

Muxtar respublikamızda hər il 500-700 bal intervalında nəticə göstərən şagirdlərin sayının artdığı Kəngərli rayon məktəblərinin cari il üçün olan qəbul göstəriciləri qürurvericidir. Qəbul imtahanında müvəffəqiyyət əldə edən şagirdlərdən bir neçəsi barədə söhbət açmaq istəyirik:

Onlardan biri Kəngərli rayon Qıvraq qəsəbə tam orta məktəbinin məzunu ***Məryəm Quliyeva***dır. Dördüncü



ixtisas qrupu üzrə 606 bal toplayan Məryəm deyir ki, beyin cərrahı olmaq onun uşaqlıq arzusudur. Böyük sevinc hissi içərisində olan müsahibimiz bu hissləri bizimlə də bölüşdü: "Xəyalım artıq reallaşır. Əlbəttə, bu gün mən, ailəm və müəllimlərim böyük sevinc hissi içərisindəyik, amma qeyd edim ki, buna nail olmaq üçün çox çalışmışam. Öz üzərimdə çox işləmişəm, ən yaxşısına nail olmağa can atmışam. Xüsusilə 11-ci sinifdə dərslərimə daha diqqətli yanaşmağa başladım. Tələbəliyə gedən yol həm fiziki, həm də psixoloji cəhətdən yorucu bir dövrdür. Məktəb illərində müxtəlif olimpiadalarda, yarışlarda da iştirak etmişəm. Həmişə mənim yanımda olub, məni dəstəkləyən valideynlərimə, arzuma çatmaqda əziyyəti keçən bütün müəllimlərimə təşəkkür edirəm. Ali təhsilimi isə Azərbaycan Tibb Universitetində Müalicə İşi ixtisası üzrə almaq istəyirəm.

***Hüseyn Babayev*** Təzəkənd tam orta məktəbinin məzunudur. Hüseyn birinci ixtisas qrupu üzrə 565 bal toplayıb məktəbi "Gümüş" nişanla bitirib. Onun arzusu Azərbaycan Dövlət İqtisad Universitetinin İnformasiya təhlükəsizliyi ixtisasına



qəbul olmaqdır. Hüseyn deyir: "İlk növbədə, istəyirəm ki, əldə etdiyim uğurlara görə biz şagirdlərə diqqət və qayğı göstərən müəllimlərimə minnətdarlıq edim. Müxtəlif yarışlarda, olimpiadalarda iştirak etmişəm. Bütün bunlar mənim fənləri daha yaxşı mənimsəməyimə, daha çox çalışmağıma səbəb oldu. Əlbəttə, bu baxımdan valideynlərimin dəstəyi də əvəzsizdir. Əzmlə çalışmağın gətirdiyi xoşbəxtliyi yaşayıram. Arzum budur ki, qəbul olacağım ali təhsil müəssisəsində fəallığımı artırım və böyük uğur əldə edim.

Qarabağlar kənd 1 nömrəli tam orta məktəbin məzunu ***Günel İsmayılova*** qəbul imtahanında III ixtisas qrupu



üzrə 560 bal toplayıb. O deyir ki, məktəb illərində müxtəlif olimpiadalar, inşa müsabiqələri və intellektual oyunlarda iştirak edərək təltif olunub. "Ən böyük arzum ədalətli, vicdanlı və xalqına xidmət edən hüquqşünas olmaqdır", – deyən Günel Naxçıvan Dövlət Universitetində Hüquqşünaslıq ixtisası üzrə təhsil almaq arzusundadır. Bu yolda ona dəstək olan ailəsinə, məktəb rəhbərliyinə və müəllimlərinə öz təşəkkürlərini bildirir.

Qıvraq qəsəbə tam orta məktəbin məzunu ***Səma Mustafayeva*** III ixtisas qrupu üzrə 564



bal toplayaraq arzuladığı ixtisas üzrə təhsil almaq hüququ əldə edib. Səma deyir ki, abituriyent olmaq çalışqanlıq tələb edir. Buna görə də gərək bütün diqqətini oxumaq üzərində cəmləşdirəsən. Xoşbəxtəm ki, əziyyətim hədər getmədi. Ailəmin və müəllimlərimin mənimlə fəxr etməsi, uğuruma sevinmələri mənim üçün ən böyük motivasiyadır. Arzum budur ki, Naxçıvan Dövlət Universitetində Dövlət və ictimai münasibətlər ixtisası üzrə təhsil alım.

*Əminik ki, ölkəmizin gələcəyi naminə inamla, yorulmadan çalışan bu gənclər ali təhsil alacaqları müəssisələrdə də bu motivasiya ilə irəliləyəcəklər. İndi onların başlıca məsuliyyəti ölkəmizdə gənclərə yaradılan şəraitdən səmərəli istifadə edib Vətənə, dövlətə layiqli vətəndaş, bacarıqlı kadr kimi yetişməkdir.*

**✍ Aysel YUSİFZADƏ**

## Müəllim və şagirdlər üçün "STEAM yay məktəbi" təşkil olunub

İnnovativ təhsil metodu olan STEAM təhsili üzrə müəllim və şagirdlərin bilik və bacarıqlarının artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi tərəfindən STEAM Təlim-Tədris Mərkəzində "STEAM yay məktəbi" təşkil olunub. 28-29 avqust tarixlərdə keçirilən Yay məktəbinə 38 müəllim, 27 şagird cəlb olunub.





Əvvəlcə Yay məktəbinin iştirakçıları STEAM Təlim-Tədris Mərkəzi ilə tanış olublar. Bildirilib ki, 236 yerlik olan mərkəz zirzəmi ilə birgə 3 mərtəbədən ibarətdir. Burada STEAM, robototexnika, CNC-3D texnologiyası, qrafiki dizayn, elektronik proqramlama-mühəndislik, dron uçuş idarəçiliyi və kodlaşdırılması, proqramlaşdırma dərnəkləri fəaliyyət göstərir. Sonra Yay məktəbinə start verilib. "STEAM yay məktəbi"ndə müəllim və şagirdlər CNC lazer texnologiyasının işləmə prinsipi, lazerin işə hazırlanması qaydalarını və bununla yanaşı, Edu dronların alqoritmik formada kodlaşdırma mexanizmlərini, proqramlaşdırma mövzularını öyrənməklə nəzəri biliklərini praktikada tətbiq ediblər. Yay məktəbində, həmçinin STEAM Təlim-Tədris Mərkəzinin mütəxəssisləri tərəfindən Edu dronların proqramlaşdırması, CNC lazer texnologiyaları praktik tətbiqlərlə geniş izah olunub.

Sonda müəllim və şagirdlərə sertifikatlar təqdim olunub.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat xidməti***


### İtmişdir

Naxçıvan şəhəri, 10-cu küçə 18A (H.Rəhmanov 5) ünvanda Süleymanov Bəhman Rza oğlunun adına olan 564 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbəsində yaşamış Əliyev Həsən Zeynalabdin oğlunun adına verilmiş 1143A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbə sakini Əliyev Ələsgər Həsən oğlunun adına verilmiş 1332A nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbəsində Əlizadə Ələkbər Həsən oğlunun adına verilmiş 1383 nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Şərur rayonunun Mahmudkənd sakini Nağıyeva Fatma Mikayıl qızının adına olan JN-499A inventar nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbə sakini Əliyeva Xeyrənsə Zeynalabdin qızının adına verilmiş 1382 nömrəli "Torpağın mülkiyyətə verilməsinə dair şəhadətnamə" itdiyindən etibarsız sayılır.

***

Qasımov Orxan Əbülfəz oğlunun adına verilmiş 103013003650 reyestr nömrəli plan-ölçü və 04.06.2012-ci il tarixli MH-0025888 nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbəsində Əlizadə Ələkbər Həsən oğlunun adına verilmiş 1464 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbə sakini Əliyev Həsən Zeynalabdin oğlunun adına verilmiş 1465 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbə sakini Əliyev Zeynalabdin Həsən oğlunun adına verilmiş 1466 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Naxçıvan şəhər sakini Qocayev Murad Alı oğlunun adına olan A-002895 inventar nömrəli torpaq sahəsinin plan və ölçüsü itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbə sakini Əliyev Ələsgər Həsən oğlunun adına verilmiş 1467 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbə sakini Əliyeva Xeyrənsə Zeynalabdin qızının adına verilmiş 1468 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.

***

Babək rayonunun Nehrəm qəsəbə sakini Məmmədov Hüseynqulu Həsən oğlunun adına verilmiş 1469 nömrəli torpağa mülkiyyət hüququna dair dövlət aktı itdiyindən etibarsız sayılır.



ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: info@serqqapisi.gov.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

www.serqqapisi.gov.az

Nömrəyə məsul: Gülcamal Tahirova

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 504